Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

"Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Nəşrdəki məlumatlar Avropa İttifaqının rəsmi mövqeyini əks etdirmir və məzmuna görə tam məsuliyyəti Dövlət Vergi Xidməti daşıyır".

## Əlavə məlumatı haradan əldə edə bilərsiniz?

Siz **taxes.gov.az** saytında vergilərlə bağlı yerləşdirilmiş materiallarla tanış ola, habelə **"195-1" Çağrı Mərkəzinin**, vergi orqanlarının əməkdaşları tərəfindən qanunvericiliyin tələbləri haqqında maarifləndirici məlumatlar əldə edə bilərsiniz. Siz şikayət verməzdən əvvəl peşəkar mütəxəssislərlə məsləhətləşmək imkanından istifadə edə bilərsiniz.

!

Lifletdəki "Siz"ə istinadlar vergi ödəyicilərinə, "biz"ə istinadlar isə İqtisadiyyat Nazirliyi və onun nəzdində fəaliyyət göstərən Dövlət Vergi Xidmətinə aiddir.

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel: +994 12 403 89 70; Faks: +994 12 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**

## Müraciətinizə hansı məlumatları daxil etməlisiniz?

Şikayət Apellyasiya Şurasına ünvanlanmalıdır. Şikayətə aşağıdakı məlumatları daxil etməlisiniz:

- Apellyasiya Şurasının adı;
- Soyadınız, adınız, ata adınız, VÖEN və aşayış yeriniz və ya olduğunuz yer. Əgər müraciət hüquqi şəxs tərəfindən edilirsə, onun adı, VÖEN-i və ünvanı;
- Yazılı və ya elektron imzanız. Müraciət hüquqi şəxs adından olduqda, onun rəhbərinin və ya nümayəndəsinin imzası və möhürü, həmçinin səlahiyyətlərini təsdiq edən sənəd;
- Müraciətin tərtib edildiyi tarix;
- Tələbiniz – istədiyiniz nəticə və məsələyə yenidən baxılmasının səbəbi;
- Şikayətin predmeti ilə bağlı əvvəllər verdiyiniz şikayət və ya müraciətlər və Sizə verilən cavablar haqqında məlumat;
- Şikayətinizə əlavə edilmiş sənədlərin siyahısı.

Daxil etdiyiniz sənədlər və digər sübutlar tələbinizi əsaslandırmalı və dəstəkləməlidir.

## Qərar qəbul edildikdən sonra nə qədər müddətə apellyasiya şikayəti vermək lazımdır?

İlkin inzibati şikayətlə bağlı qəbul edilmiş Qərardan onun təqdim olunduğu vaxtdan 30 gün müddətində Apellyasiya Şurasına müraciət edilə bilər. İnzibati aktdan şikayət verilməsi ilə bağlı müddət üzrlü səbəbdən buraxıldıqda, maraqlı şəxsin ərizəsinə əsasən həmin müddət bərpa edilə bilər.

## Apellyasiya Şurasına şikayətiniz verildikdən sonra nə baş verir?

Müraciətin əsaslılığı yoxlanılır və qeydə alınır, Dövlət Vergi Xidmətindən alınan məlumatlar da daxil lazım olan bütün sənədlər hazır olduqdan sonra baxılmaq üçün Apellyasiya Şurasına təqdim edilir. Lazım gələrsə, əlavə sənədlər və ya məlumat təqdim etməyiniz xahiş olunacaq.

Apellyasiya Şurası Sizi şikayətə baxılmasında iştiraka dəvət edəcək. Bu, müraciətinizin nə ilə bağlı olduğunu izah etmək üçün dəyərli fürsətdir və Siz işə baxılmasında iştirak etməlisiniz.

Sizin nümayəndənizin işə baxılmasında iştirak etmək, izahat vermək və təkliflər irəli sürmək hüququ var. Qərarın işə baxılmasında Dövlət Vergi Xidmətinin əməkdaşlarının da iştirak etməsi tələb olunacaq. Şura mütəxəssis və ya ekspertləri də görüşə dəvət edə bilər.

## Apellyasiya Şurasına edilmiş şikayətlərə necə baxılır?

Qərar Şura üzvlərinin səs çoxluğu ilə qəbul edilir. Onlar ilkin qərarı dəyişdirə, dəyişiklik edilmədən saxlaya,qərarı tamamilə və ya qismən ləğv edilərək, yeni qərar qəbul edə, şikayət digər hərəkət və ya hərəkətsizlikdən verilibsə, həmin hərəkət və ya hərəkətsizliyi qanuni və ya qanunsuz hesab edə və ya şikayət üzrə icraata xitam verə bilər. Şura Sizə şikayətinizə baxılmasının nəticəsinə dair rəsmi məlumat verəcəkdir.

## Apellyasiya Şurasının qərarından sonra narazı olsanız, nə edə bilərsiniz?

**Qərardan narazısınızsa, məhkəməyə müraciət edə bilərsiniz.**

DÖVLƏT VERGİ XİDMƏTİ

# Addımbaaddım vergi mübahisənizin həlli

## Şikayət etməzdən əvvəl düşünməli olduğunuz məqamlar

Şikayət vermək bütün vergi ödəyicilərinin hüququdur və qanunvericiliyə zidd olduğunu düşündüyünüz qərarın düzəldilməsinin bir üsuludur. Qanunvericilik şikayətlərə qərəzsiz, obyektiv və hərtərəfli baxılmasını tələb edir. Şikayət bizə öz fəaliyyətimiz və kadr hazırlığı ilə bağlı problemlərimizi müəyyənləşdirməyə kömək edir.

Əlavə vergilərin və faizlərin hesablanması, habelə maliyyə sanksiyalarının tətbiqi barədə qəbul edilmiş qərarda şikayət etmək hüququnuz barədə məlumat öz əksini tapacaq.

## Mübahisəli vergini ödəməlisinizmi?

Siz bütün hallarda mübahisəli vergini ödəməli olacaqsınız və həmin məbləğin, maliyyə sanksiyaları ilə bağlı hallar istisna edilməklə, borcun alınması üçün tədbirlər görülə bilər. Şikayətiniz təmin edilərsə, ödənilmiş hər hansı artıq vergi digər vergi öhdəliklərinə yönəldiləcək və ya Siz artıq ödənilmiş məbləğin geri qaytarılmasını tələb edə biləcəksiniz.

## Şikayət verməzdən əvvəl nələri nəzərə almalısınız?

Şikayət etmək qərarına gəlməzdən əvvəl ciddi əsaslandırmanız və kifayət qədər sübutunuzun olub-olmadığını diqqətlə nəzərdən keçirməlisiniz. Çağrı Mərkəzimizin, eləcə də vergi orqanlarının əməkdaşları Sizə vergi qanunvericiliyinin tələblərini izah edə bilərlər. Dövlət Vergi Xidmətinin taxes.gov.az saytından vergi qanunvericiliyi bağlı ətraflı məlumatlar əldə etmək imkanınız var.

Probleminizi həll etmək üçün Sizə lazım olan sübutlar Dövlət Vergi Xidmətinin qərarının xarakterindən asılıdır. Siz iddialarınızda haqlı olduğunuzu sübut etmək üçün dəqiq və müfəssəl məlumat verməklə təkzibolunmaz faktlar təqdim etməlisiniz.

## İnzibati şikayəti necə təqdim etmək lazımdır...

Bu məlumat Sizə Dövlət Vergi Xidmətinin İnzibati şikayətlərə baxılması Baş İdarəsinə şikayət təqdim etməkdə yardımçı olacaq. Bu, şikayətin yazılmasını və təqdim edilməsini, eləcə də müraciətdən sonrakı prosesləri əhatə edir.

## Şikayətinizə hansı məlumatları daxil etməlisiniz?

Şikayətlə bağlı ərizəyə aşağıdakı məlumatlar daxil edilməlidir:

- Şikayətin verildiyi inzibati orqanın adı və ünvanı;
- Soyadınız, adınız, ata adınız, VÖEN və yaşayış yeriniz və ya olduğunuz yer. Əgər müraciət hüquqi şəxsə aiddirsə, onun adı, VÖEN-i və ünvanı;
- Yazılı və ya elektron imzanız. Müraciət hüquqi şəxs adından olduqda, onun rəhbərinin və ya nümayəndəsinin imzası və möhürü, həmçinin səlahiyyətlərini təsdiq edən sənəd;
- Müraciətin tərtib edildiyi tarix;
- Barəsində şikayət verilən inzibati akt və ya hərəkət (hərəkətsizlik);
- Tələbiniz və tələbinizin əsasları – istədiyiniz nəticə və məsələyə yenidən baxılmasının səbəbi;
- Şikayətə əlavə edilmiş sənədlərin siyahısı.

Verdiyiniz məlumatlar şikayətinizin qəbul olunması üçün dolğun olmalıdır. Kifayət qədər məlumat vermədiyiniz təqdirdə, şikayətiniz rədd edilə bilər.

## Şikayətinizi necə verə bilərsiniz?

Şikayətlə bağlı müraciətinizi onlayn qaydada, şəxsən və ya poçtla təqdim edə bilərsiniz. Şikayətiniz İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin İnzibati şikayətlərə baxılması Baş İdarəsinə ünvanlanmalıdır.

## Qərar qəbul edildikdən sonra nə qədər müddətə şikayət vermək olar?

İnzibati şikayət vergi ödəyicisi və ya başqa borclu şəxs tərəfindən öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən 3 ay müddətində verilir.

Vergi ödəyicisi üzrlü səbəbdən bu müddəti buraxmışdırsa, onun ərizəsi əsasında DVX həmin müddəti bərpa edə bilər.

## Şikayət təqdim olunduqdan sonra nə baş verir?

Müraciətlərə İnzibati şikayətlərə baxılması Baş İdarəsi tərəfindən baxılır. Bu, şikayətinizə ədalətli şəkildə baxılmasını təmin etmək üçün Dövlət Vergi Xidmətində yaradılmış ayrıca idarədir. İşi araşdıran məmur şikayətinizin gedişi barədə Sizi məlumatlandıracaq.

## Şikayətiniz araşdırıldıqda nə baş verir?

İdarədə şikayətinizə baxan şəxsin adı Sizə bildiriləcək. Əlavə məlumat tələb olunarsa, bunu təmin etməyiniz xahiş olunacaq.

Sizdən, həmçinin, idarəyə gəlmək və şikayətinizi izah etmək tələb oluna bilər. Görüşdə iştirak edərkən səlahiyyətli nümayəndə ilə təmsil olunmaq hüququnuz var. İnzibati şikayətlərə baxılması Baş İdarəsi qərar qəbul etməzdən əvvəl öz təşəbbüsü ilə əlavə sübutlar əldə edə bilər.

Şikayətinizə baxılmasının nəticəsi barədə qərar İnzibati şikayətlərə baxılması Baş İdarəsi tərəfindən qəbul ediləcəkdir. Qərarla şikayətiniz tam və ya qismən təmin oluna və ya rədd edilə bilər.

## Qərardan narazısınızsa, nə edə bilərsiniz?

Şikayət tam şəkildə təmin olunmadığı təqdirdə, qərardan şikayət etmək hüququ Sizə izah olunacaq. Şikayət üçün ən çox istifadə olunan üsul İqtisadiyyat Nazirliyinin Apellyasiya Şurasına və ya müstəqil qaydada məhkəməyə müraciət etməkdir.

## İqtisadiyyat Nazirliyinin Apellyasiya Şurasına necə müraciət etmək olar

**Bu məlumat kimin üçündür?**

Bu məlumat İqtisadiyyat Nazirliyinin Apellyasiya Şurasına (bundan sonra - "Apellyasiya Şurası" adlanır) müraciət etməkdə Sizə yardımçı olmaq üçündür. Məlumat Apellyasiya Şurasına şikayətin yazılmasını və təqdim olunmasını, eləcə də müraciət təqdim olunduqdan sonrakı prosesi əhatə edir.